**«Qarşılıqlı faydalı əlaqələr yğksək səviyyədədir»**

Latviya Düvlət Vergi Xidmətinin baş direktoru
Neliya Yezdakova

...MDB vergi xidməti orqanlarının müasir iş təcrübəsinin onun ölkəsi üçün müstəsna əhəmiyyətini xüsusi vurğulayaraq demişdir ki, Bakı toplantısında müzakirəyə çıxarılan məsələlər inkişaf etmiş ölkələrin vergi xidmətlərinin də maraq dairəsindədir. Onun qənaətincə, iqtisadi inteqrasiya proseslərinin geniş vüsət aldığı qloballaşma dövründə vergi inzibatçılığı və vergi ödəcəyicilərinə xidmətin təşkili, vergi qanunvericiliyinin müasirləşdirilməsi kimi məsələlər bütün dövlətlər üçün eyni dərəcədə aktualdır: «Fikrimcə, iclasda vergi sahəsində çox vacib məsələlər müzakirə mövzusu oldu. Bu görüş həm ölkələrin bir-birinin təcrübəsi ilə yaxından tanışlığı, həm də informasiya mübadiləsi baxımından əhəmiyyətlidir. Latviya MDB üzvü olmasa da, biz bu iclasda müşahidəçi qismində iştirak edirik, çünki MDB məkanında aparılan vergi islahatları bizim üçün də maraqlıdır. Bununla biz vergi islahatları sahəsində əldə etdiyimiz nəticələri qarşılıqlı olaraq müzakirə edə və səmərəli mübadiləyə nail ola bilərik».

Neliya Yezdakova Azərbaycan ilə Latviyanın IOTA - Avropadaxili Vergi Administrasiyaları Təşkilatı çərçivəsində sıx əməkdaşlıq etdiyini,  ölkələrimizin vergi xidmətləri arasında gələcək əməkdaşlığa dair saziş imzalandığını vurğulayaraq demişdir: «Bu saziş bizə əməkdaşlıq üçün daha geniş imkanlar açır».